www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-11 (1728) 15 iyun 2021-ci il



## ATU daha bir Türkiyə universiteti ilə əməkdaşlığı genişləndirir

**Professor Gəray Gəraybəyli: “Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi universitetimiz üçün prioritet istiqamətlərdən biridir”**

səh. 2

## Əsas tibb təhsili ixtisasları üzrə yekun dövlət attestasiyası məcburidir

**Məlum olduğu kimi, ötən ildən başlayaraq, Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən, ali və orta ixtisas təhsili müəssisələrində tədris və təlim-tərbiyə prosesi distant (məsafədən) formada təşkil edilmişdir. Cari tədris ilinin payız semestrinin imtahan sessiyası da onlayn şəkildə həyata keçirilmişdir.**

Hazırda xüsusi karantin rejimi davam etdiyinə görə Təhsil Nazirliyinin təklifinə əsasən, Nazirlər Kabinetinin 5 iyun 2021-ci il tarixli qərarına uyğun olaraq, cari tədris ilində də orta ixtisas təhsili pilləsində (bütün ixtisaslar üzrə) və ali təhsil pilləsinin bakalavriat səviyyəsində (xüsusi qabiliyyət tələb edən ixtisaslar və əsas (baza ali) tibb təhsili ixtisasları istisna olmaqla digər bütün ixtisaslar üzrə) tələbələrin yekun dövlət attestasiyası üzrə biliyinin qiymətləndirilməsinin təhsil müddətində əldə etdikləri nəticələr (Ümumi Orta Müvəfəqiyyət Göstəricisi) əsasında aparılması məqsədəmü-vafiq hesab edilmişdir.

Bununla əlaqədar Nazirlər Kabinetinin müvafiq qərarlarına lazımi dəyişikliklər olunmuşdur. Belə ki, qərara əsasən, orta ixtisas təhsili pilləsində bütün ixtisaslar üzrə, bakalavriat səviyyəsində isə xüsusi qabiliyyət tələb edən ixtisaslar və əsas (baza ali) tibb təhsili ixtisasları istisna olmaqla digər bütün ixtisaslar üzrə tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq dövlət attestasiyasından keçmiş hesab olunurlar. Bakalavriat səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisaslar və əsas (baza ali) tibb təhsili ixtisaslarında isə yekun dövlət attestasiyası isə məcburidir. Bu ixtisaslar üzrə magistratura səviyyəsində də yekun attestasiya məcburidir. Magistratura səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər ali təhsil müəssisəsinin Elmi Şurası və Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyənləşdirilir.



## 17 iyun - Tibb İşçilərinin Peşə Bayramı Günüdür

***İnsanlara keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün Azərbaycanda bütün imkanlar var***

səh. 4

## Əcnəbi tələbələr Qarabağda

səh. 5

## Gənc həkim ağır əməliyyatı uğurla həyata keçirib

səh. 7



## “Uşaqları erkən yaşlarında kardioloji müayinə etdirmək vacibdir”

***Pediatrik-invaziv kardioloq Elşən Rzayev Vətən Müharibəsində tibb xidməti zabiti kimi iştirak edib***

səh. 6

# Milli qurtuluşdan başlanan möhtəşəm yol

**Ötən əsrin 80-ci illərinin sonlarında genişlənən milli azadlıq hərəkatı 1991-ci ilin oktyabrında Azərbaycanın öz müstəqilliyini əldə etməsi ilə nəticələndi. Lakin müstəqilliyin ilk illəri heç də asan olmadı. Ölkədə siyasi hərc-mərclik, xaos, qarşıdurma hökm sürürdü.**

## Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycan siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas olaraq, inkişaf yoluna qədəm qoydu



Ən böyük təhlükə isə 1993-cü ilin iyunundakı Gəncə qiyamı idi. Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir vəziyyətdə xalq o vaxt Naxçıvanda yaşayan Heydər Əliyevə üz tutdu və onu Bakıya dəvət etdi. Xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başladı.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Həmin dövrdən etibarən ölkədə bütün istiqamətlərdə tüğyan edən tənəzzülün qarşısı alındı, Azərbaycanın inkişafını təmin edən böyük addımlar atıldı. Onun müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Heydər Əliyev qısa bir müddətdə bütün qüvvələri səfərbər edərək, Azərbaycanı təhdid edən təhlükələri aradan qaldırdı. Ən başlıcası, separatçıların qarşısı alındı, qanunsuz silahlı dəstələr ləğv edildi. Beləliklə Heydər Əliyevin siyasi iradəsi, uzaqgörən siyasəti Azərbaycanı parçalanmaq təhlükəsindən qurtardı. Getdikcə dünya dövlətlərində, beynəlxalq aləmdə müstəqil Azərbaycana bir inam, etibar yaranmağa başladı.

Qısa vaxt ərzində ölkədə keçirilən siyasi islahatlar uğurlu oldu. Lakin müstəqil respublika üçün iqtisadi müstəqillik də əsas amillərdən biri idi. Odur ki, Heydər Əliyev iqtisadi islahatları önə çəkdi. Bu islahatlar nəticəsində böyük inkişaf və tərəqqi yoluna qədəm qoyuldu. Əldə olunan nailiyyətlər insanların güzəranının yaxşılaşdırılması ilə yanaşı, həm də ölkənin iqtisadi gücünü artırmış oldu. Bir çox xarici sərmayədarlar Azərbaycana böyük maraq göstərməyə başladı. Uğurla həyata keçirilən neft strategiyası Azərbaycanın inkişafında böyük rol oynadı. Qısa vaxtda ölkənin təhsil, səhiyyə, mədəniyyət sahələrində də böyük inkişaf başladı. Tənəzzül və durğunluq aradan qaldırıldı. Azərbaycanda modern bir dövlət qurulmuş oldu.

Heç tərəddüd etmədən demək olar ki, Azərbaycanın bugünkü inkişafı və tərəqqisi 1993-cü ilin iyunundan başlamışdır. Tarix göstərdi ki, xalq öz seçimində, Heydər Əliyevi Bakıya, hakimiyyətə dəvət etməkdə yanılmayıb. Odur ki, xalqımız dövlətçilik tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu günü sevə-sevə qeyd edir. 1997-ci ilin 27 iyununda Milli Məclisin qərarı ilə 15 iyun Milli Qurtuluş Günü kimi rəsmiləşdirilmişdir. Milli Məclisin həmin tarixli qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

Müasir müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, ardıcıl nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir. Məhz onun rəhbərliyi altında müzəffər ordumuzun 30 ilə qədər erməni işğalı altında qalan torpaqlarımızı 44 günlük Vətən müharibəsi ilə azad etməsi xüsusi qeyd edilməlidir. Bununla ulu öndərin xarici və daxili siyasətini uğurla davam etdirən prezidentimiz öz adını müqəddəs tariximizə əbədi həkk etdi.

**Fəxrəddin Məmmədov**
*İctimai fənlər kafedrasının professoru*

# ATU daha bir Türkiyə universiteti ilə əməkdaşlığı genişləndirir

## Professor Gəray Gəraybəyli: "Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi universitetimiz üçün prioritet istiqamətlərdən biridir"



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Türkiyənin Altınbaş Universitetinin rektoru, professor Çağrı Erhanı qəbul edib.**

Qonağa rəhbəri olduğu təhsil müəssisəsi haqda məlumat verən G.Gəraybəyli bildirib ki, universitetin 6 fakültəsi var. Hazırda ATU-da 7 mindən çox tələbə təhsil alır ki, onların da 2 min nəfərdən çoxu xarici tələbədir. Bu göstəriciyə görə, ATU ölkə universitetləri arasında birinci yerdədir.

Rektor qeyd edib ki, ötən il ATU-da iki yeni ixtisas açılıb: tibb bacısı və fizioterapist. Bundan başqa, iki əlavə magistratura ixtisası təşkil olunub-tibbi psixiatriya və tibbi menecment.

Həmçinin 2020-ci ildən başlayaraq, universitetdə ilk dəfə Azərbaycan vətəndaşları üçün ingilis dilində tədris həyata keçirilir.

ATU-nun rektoru əlavə edib ki, universitetin özünün 4 klinikası - Tədris Cərrahiyyə, Tədris Terapevtik, Tədris stomatoloji və Onkologiya klinikaları fəaliyyət göstərir və hər biri müasir avadanlıqlarla təchiz olunub. Tələbələr burda klinik dərslərini keçirlər.

Onun sözlərinə görə, beynəlxalq əlaqələrin genişləndirilməsi ATU üçün prioritet istiqamətlərdən biridir: "Təbii ki, bu məsələdə Türkiyə universitetləri ilə olan əlaqələr ilk sırada durur. İnanıram ki, bu görüşdən sonra bizim əməkdaşlıq müqaviləmiz daha işlək olacaq. Hesab edirəm ki, müqavilə əsasında artıq ciddi şəkildə qarşılıqlı elmi işlərin aparılmasına baxılmalıdır. İki qardaş ölkə arasında gediş-gəlişin rahat olması və dil maneəsinin olmaması bu məsələdə böyük bir üstünlükdür".

Rektor Çağrı Erhan qeyd edib ki, Altınbaş Universiteti Türkiyədəki Vəqf universitetləri arasında xarici tələbə sayına görə birinci yerdədir: "Mən də o fikirdəyəm ki, memorandum əsasında tələbə və müəllim mübadiləsinə başlamalıyıq. Onsuz da bizdə azərbaycanlı tələbələr təhsil alır. Tibb, diş həkimliyi və əczaçılıq kimi eyni fakültələrimiz var. Diş həkimliyi üzrə bu il ilk məzunlarımız olacaq. Bundan başqa, bir klinikamız və on şöbəli Tibb xidmətləri məktəbimiz var. İnanıram ki, bu görüşdən sonra qarşılıqlı fəaliyyətimiz daha səmərəli olacaq".

Görüşdə ATU-nun Ümumi işlər üzrə prorektoru Tahir Vəliyev, Beynəlxalq əlaqələr üzrə prorektor Orxan İsayev, Altınbaş Universiteti Biznesin idarə edilməsi fakültəsinin dekanı Ali Argun Karacabey, beynəlxalq əlaqələr şöbəsinin müdiri Nur Eradlı iştirak ediblər.

# Rektor Dövlət imtahanlarının gedişini izləyib



İyunun 9-dan etibarən Azərbaycan Tibb Universitetində (ATU) Dövlət buraxılış imtahanlarına start verilib. Universitetin rektoru, professor Gəray Gəraybəyli Müalicə-profilaktika fakültəsinin buraxılış kurs tələbələri üçün keçirilən imtahanları izləyib.

Xatırladaq ki, ATU-da yekun attestasiya Nazirlər Kabinetinin qərarına əsasən keçirilir. Bacarıq imtahanları əyani olaraq, test imtahanları isə onlayn formatda təşkil ediləcək. İlk mərhələdə tələbələrin bacarıqları, növbəti mərhələdə isə nəzəri bilikləri qiymətləndiriləcək. İmtahanlar iyunun 30-a qədər davam edəcək.

Professor G.Gəraybəyli Obyektiv Strukturlaşmış Klinik İmtahanları (OSKİ) vermiş, eləcə də hələ imtahanları olmamış tələbələrlə söhbət edərək, onların fikir və təkliflərini dinləyib, proses gedən kabinetlərlə tanış olub.



İmtahandan uğurla çıxan tələbələri təbrik edən rektor, pandemiya vəziyyəti ilə əlaqədar sualların azaldıldığını, test imtahanlarının onlayn keçirildiyini nəzərə çatdırıb.

# ATU-da islahatların əsas məqsədi tədrisin keyfiyyətini yüksəltməkdir

## Böyük Elmi Şurada universitetimizin uğurları ilə yanaşı, neqativ hallara da diqqət ayrılıb

**Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının növbəti iclası keçirilib. Onlayn formatda təşkil olunmuş iclası açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli ölkəmizdə vaksinasiya prosesinin müvəffəqiyyətlə aparıldığını, müraciət edənlərin getdikcə çoxaldığını və bu tədbirlərin epidemioloji vəziyyətə müsbət təsir göstərəcəyini vurğulayıb. Rektor bütün kafedralarda və şöbələrdə çalışan əməkdaşların vaksinasiya prosesinə cəlb edilməsinin zəruriliyini bildirib.**



Bu günlərdə dünyasını dəyişən Travmatologiya və ortopediya kafedrasının professoru Əhməd Əhmədzadənin xatirəsi yad edildikdən sonra iclasda müzakirəyə çıxarılan məsələlər diqqətə çatdırılıb. Əvvəlcə "Azərbaycan Tibb Universitetində 2020/2021-ci tədris ilində buraxılış Dövlət Attestasiyasına və yaz semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri" mövzusunda Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevin hesabat məruzəsi dinlənilib.

S.Əliyev ali təhsil müəssisələrində 2020/2021-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasını təşkil etmək məqsədilə təhsil nazirinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin müvafiq bəndini rəhbər tutaraq imzaladığı əmrlə istər tədris hissəsi və dekanlıqlar, istərsə də kafedralar qarşısında konkret vəzifələr qoyulduğunu bildirib. Bununla yanaşı, əmrin icrası ilə bağlı bəzi çatışmazlıqların olduğunu da diqqətə çatdırıb. O, testlərin hazırlanmasının dəfələrlə ayrı-ayrı kafedralara və onların ekspertlərinə tapşırılmasına baxmayaraq, bəzi kafedralarda bu məsələyə dair problemlərin mövcudluğunu təəssüflə qeyd edib: **"Xatırlatmaq istərdim ki, əvvəlki illərdə testlərin hazırlanmasında olan qüsurlara və bəzən tədris intizamının pozulmasına görə nəinki müəllimlər, hətta kafedra müdirləri vəzifələrindən kənarlaşdırılmışdır. Təəssüf doğuran odur ki, illərdir bu məsələ ayrı-ayrı fakültə şuralarında və Böyük Elmi Şurada müzakirə olunsa da, bəzi kafedralar İmtahan Mərkəzinə testlərin verilməsini gecikdirir və bu testlərdə ciddi qüsurlar aşkarlanır. Təməl fənləri üzrə, demək olar ki, belə bir problem mövcud deyil. Lakin çox təəssüf ki, kliniki kafedralarda bu məsələlərə bəzi kafedra müdirləri və ekspertlər ciddi yanaşmırlar. Məsələn, keçən semestrdə Ailə təbabəti kafedrasında hazırlanan testlərin qaydasında olmaması ilə bağlı göstəriş verilsə də, bu semestrdə də həmin kafedrada testlər vaxtında hazırlanmadı və İmtahan Mərkəzinə verilməsi gecikdirildi. Təbiidir ki, biz gələcəkdə testlərin tərtib olunması, onların məxfi saxlanılması baxımından yeni qaydaların hazırlanması üzərində işləmək məcburiyyətindəyik".**

Artıq bir neçə ildir ki, kredit sistemi ilə təhsil alan tələbələrlə imtahanların universitetdə yaradılmış Virtual Test Mərkəzinin köməyi ilə mərkəzləşdirilmiş şəkildə aparıldığını söyləyən prorektor, 2020/2021-ci tədris ilində ilk dəfə olaraq I-III kurslarda aralıq sorğuların nəticəsinin bu günlərdə rektoryanı şurada geniş müzakirə olunduğunu bildirib. O, xarici tələbələrlə işin yüksək səviyyədə qurulmasının yenə də prioritet məsələ olduğunu, bu sahəyə cavabdehlik daşıyan dekanlığın dünyanın müxtəlif ölkələri və universitetləri ilə əlaqələri daim genişləndirdiyini vurğulayıb: **"Xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayı ildən-ilə artır. 2020/2021-ci tədris ilinin 24.05.2021-ci il tarixə olan statistikasına görə, ATU-da 35 ölkədən 2028 nəfər tələbə təhsil alır ki, bunlardan da Türkiyə Cümhuriyyətindən YÖK yolu ilə təhsil alanların sayı 89 nəfərdir. Bundan əlavə, 48 nəfər əcnəbi vətəndaş rezidenturada təhsil alır.**

**ATU-da tədrisin ingilis dilində aparılması xarici ölkə vətəndaşlarının universitetimizə cəlb olunmasında böyük əhəmiyyət kəsb edir. Xarici tələbələrlə iş üzrə dekanlığın yerinə yetirdiyi vacib işlərdən biri də tələbələrin Bakı şəhərində müvəqqəti yaşamaq hüququnu təmin etmək üçün Dövlət Miqrasiya Xidməti ilə sıx əlaqə saxlayaraq, onların qeydiyyatını təşkil etməkdir. Dekanlıq tez-tez yataqxanada yaşayan əcnəbi tələbələrin məişət şəraiti ilə maraqlanır və problemlərinin yerindəcə həll olunması üçün səy göstərir. Tədris ili ərzində tələbələrin yaşayış şəraitinin yaxşılışdırılması universitetimizin rektorunun və Xarici tələbələrlə iş üzrə dekanlığın daim diqqət mərkəzində olmuşdur".**

Rektorun müvafiq əmri ilə təsdiq edilmiş ayrı-ayrı fakültə və kurslar üzrə imtahan-məqbul şəbəkəsi haqqında məlumat verən S.Əliyev "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulundan sonra tibb təhsilinin əsas və rezidentura təhsilindən ayrıldığını, 2011-ci ildən başlayaraq ölkədə rezidentura təhsilinə start verildiyini xatırladıb: **"Ənənəvi olaraq rezidenturaya qəbul imtahanları Dövlət Attestasiyasından sonra aparılırdı. Artıq bir neçə ildir ki, rezidenturaya qəbul imtahanları 2 mərhələdə aparılır və hər mərhələ 100 balla qiymətləndirilir. Cari tədris ili üçün I mərhələ – baza tibb fənləri üzrə imtahanlar 2020-ci ilin may və avqust aylarında aparılıb, II mərhələ – klinik fənlər üzrə isə 2021-ci il sentyabrın 20-nə planlaşdırılır. Rezidenturaya ötən il qəbul üçün 1428 nəfər sonuncu kurs tələbəsi və əvvəlki illərin məzunları müraciət etmişdir ki, onlardan 31 nəfəri xarici ölkələrdə təhsil müəssisələrini bitirənlərdir. Səhiyyə Nazirliyi ilə razılaşdırılaraq, I mərhələ üzrə müsabiqə şərti 40 bal saxlanılmışdır. Sənəd verənlərin böyük əksəriyyəti universitetimizin məzunları və ya sonuncu kurs tələbələridir. Toplanmış ən yüksək bal 83 olmuşdur. Qeyd etmək lazımdır ki, bu ilin nəticələri keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli yaxşılaşmışdır. Belə ki, bu il I turdan sonra 40 və daha çox bal toplayanlar 666 nəfərdir. Keçən il onların sayı cəmi 459 nəfər olmuşdur".**



Professor S.Əliyev çıxışının sonunda imtahanların gedişinə ciddi nəzarət olunacağını və neqativ hallarla bağlı hər bir siqnala çox kəskin reaksiya veriləcəyini, həm Təhsil Nazirliyində, həm də universitetimizdə imtahan prosesinə nəzarət məqsədilə qaynar xətt və operativ qərargahın fəaliyyət göstərəcəyini deyib. O, 2021-ci il məzun buraxılışı və "Azərbaycan həkiminin andı"nın qəbulunun iyun ayının üçüncü ongünlüyünə təyin olunacağını da şura üzvlərinin diqqətinə çatdırıb, Dövlət Attestasiya sınaqlarına və yaz semestrinin imtahan sessiyasına bütün hazırlıq işlərinin yekunlaşdırıldığını, kollektivin bu məsul və çətin işin öhdəsindən bacarıqla gələcəyinə inandığını bildirib.

Mövzu ətrafında müzakirələrə qatılan Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizova və III cərrahi xəstəliklər kafedrasının müdiri, professor Fariz Camalov onlayn dərslər və əldə olunan nəticələrdən danışıblar. Aralıq qiymətləndirmə zamanı maksimal bal toplayanların olduğunu, sərbəst işlərə marağın xeyli artdığını və kliniki bacarıqların, vərdişlərin aşılanması üzrə məqsədyönlü məşqlərin aparıldığını söyləyərək, yaz semestrinə hazırlığın vəziyyətini qənaətbəxş qiymətləndiriblər.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor G.Gəraybəyli, ilk növbədə yeni reallıqlarla hesablaşmaq zərurətinin yarandığını deyib. Onun sözlərinə görə, 1-2 il əvvələdək bizə yad olan pandemiya, epidemiya, onlayn dərslər, hibrid dərslər, distant təhsil kimi ifadələr çox sürətlə həyatımıza daxil olublar. Ona görə də təhsil prosesimizi, bütün fəaliyyətimizi bu yeni reallığa uyğun qurmalıyıq: "Bildiyiniz kimi, son illər universitetimizdə müxtəlif istiqamətlər üzrə bir çox islahatlara start verilib. Əsas diqqət isə tədrisin keyfiyyətinə yönəldilib. Pandemiya bu prosesi bir qədər ləngitsə də, islahatlar yeni situasiyaya uyğun aparılır. Ötən ilin avqustunda təsdiq olunan yeni standartlar tədris prosesinin bir çox tələblərinə dəyişiklikləri nəzərdə tutur. Dərs saatlarının azalması, tədrisin mahiyyətinin dəyişməsi, daha çox vərdişlərə, bacarıqlara diqqət yetirilməsi həmin dəyişikliklər sırasındadır. Nəticədə bəzi kafedraların dərs yükü azalır, bəziləri isə hətta bağlana bilər. Bununla yanaşı, gələcəkdə yeni çağırışların, tələblərin meydana çıxması ilə yeni ixtisas və kafedraların açılması da mümkündür".

G.Gəraybəyli tibb təhsilinin keyfiyyətini yüksəltmək üçün niyə daha çox Türkiyə universitetlərinin tibb fakültələrinin proqramlarına və onların apardığı təhsil formatına istinad edilməsi barədə ona ünvanlanan suala ölkə başçısı cənab İlham Əliyevdən sitat gətirməklə cavab verdiyini vurğulayıb: **"Cənab Prezidentin Türkiyənin təhsil nazirini qəbul edərkən söylədiyi fikir səslənən suallara ən aydın cavabdır. Prezident bildirmişdir ki, Türkiyənin təcrübəsi bizim üçün çox önəmlidir. Çünki biz elə bir güclü müttəfiqlik yaratmışıq ki, gələcək nəsillər öz addımlarını bu müttəfiqliyə və bu qardaşlığa uyğun atmalıdırlar".**




Rektor bu günlərdə Türkiyədən 2 böyük nümayəndə heyətini qəbul etdiyini, onlarla faydalı müzakirələr apardığını xatırladıb. Daha sonra fevralın 15-dən başlanan hibrid – bəzi kurslarda onlayn, bəzi kurslarda isə canlı dərslər zamanı yaranan çətinliklərdən də söz açıb. Əvvəllər onlayn dərslərin tibbi təhsilin keyfiyyətinə mənfi təsir göstərdiyini deyən bəzi müəllimlərin sonradan fikirlərini dəyişərək bu şəraitdə canlı dərslərin əleyhinə çıxmasını təəssüf hissi ilə yada salıb. Ancaq bütün çətinliklərə baxmayaraq, semestrin müvəffəqiyyətlə başa çatdığını söyləyib.

Universitetin rəhbəri bəzi kliniki kafedralarda canlı dərslər zamanı tələbələrə xəstələrin az nümayiş olunmasını, dərslərin sırf nəzəri formatda keçirilməsini mənfi hal kimi dəyərləndirib: **"Tələbələr haqlı olaraq mənə sual ünvanlayırdı ki, bu dərslərin onlayn dərsdən fərqi nədir? Əgər biz kabinetdən bayıra çıxmırıqsa, müəllim kitabdan hansısa abzası, hansısa mövzunu danışırsa, heç bir əyani vasitə, xəstə və ya mulyaj nümayiş etdirilmirsə, bu necə canlı dərsdir?"**

Yeni yaradılan Tibb təhsili və innovasiya şöbəsi haqqında şura üzvlərinə məlumat verən rektor bildirib ki, şöbə fəaliyyətini mövcud tədris prosesinin təhlili əsasında müəyyən təkliflərin hazırlanmasına yönəldəcək.

ATU-nun rektoru bəzi kafedra müdirlərində hələ də köhnə stereotiplərin qaldığını, həmin vəzifəyə seçilən şəxslərin o adı doğrultmalı olduqlarını, əks halda konkret tədbirlər görüləcəyini vurğulayıb.

Yekun nitqində tələbələrin biliyinin qiymətləndirilməsi metodlarına da toxunan professor G.Gəraybəyli davamiyyətə görə qiymətləndirmənin ləğv olunmasını məqsədəuyğun hesab edib.

Sonra digər məsələlərin müzakirəsinə başlanılıb.

Dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrinə razılıq verən Elmi Şura sonda Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayevin həm müqavilələrin elektron qaydada bağlanması, həm də müvafiq sənədlərin elektron qaydada qəbulu barədə təklifini, eyni zamanda elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçisini, elmi adları təsdiqləyib.

**Arif MƏMMƏDLİ**



# 17 iyun - Tibb İşçilərinin Peşə Bayramı Günüdür

*İnsanlara keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün Azərbaycanda bütün imkanlar var*

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. İnsanlara həyat və sağlamlıq bəxş edən tibb işçilərinin şərəfinə keçirilən peşə bayramı üçün 17 iyun tarixinin seçilməsi heç də təsadüfi deyil. 1918-ci ilin həmin günündə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə Səhiyyə Nazirliyi təsis edilib. Bundan sonra Azərbaycan səhiyyəsi inkişaf yoluna qədəm qoyub.**

Tarixə nəzər salsaq görərik ki, Cümhuriyyət dövründə Səhiyyə Nazirliyinin yaranması ilə paralel olaraq həm əhaliyə, həm də döyüşlərdə yaralanan əsgər və zabitlərə tibbi yardımın təşkili üçün yeni xəstəxanalar və apteklər açılıb. Eyni zamanda tibbi kadrların hazırlığı məsələsi həmişə diqqət mərkəzində saxlanılıb. Bunun bariz nümunəsi 1919-cu ildə əsası qoyulan Bakı Dövlət Universitetində tibb fakültəsinin yaradılmasıdır ki, burada təhsil alan tələbələr sonralar səhiyyəmizin kadr potensialının özəyini təşkil etdilər.

Sovetlər dövründə isə Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazasında Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) əsası qoyulmuş, bir neçə elmi tədqiqat institutu fəaliyyətə başlamışdı. Həmin dövrdə Azərbaycanın Mirəsədulla Mirqasımov, Əziz Əliyev, Mustafa bəy Topçubaşov, Əbülfəz Qarayev və digər tanınmış alimlərinin adları SSRİ-də böyük hörmətlə çəkilir, onların tədqiqatları dərsliklərə salınırdı.

İkinci Dünya müharibəsi illərində Azərbaycan səhiyyəsi qələbəmiz naminə böyük işlər görmüşdü. Həkimlərimiz, bütün tibb işçilərimiz hərbi hospitallarda yaralıları həyata qaytarmaq üçün gecə-gündüz çalışırdılar. Müharibədən sonrakı dövrdə Azərbaycan səhiyyəsi əsas diqqəti əhalinin sağlamlığına, müxtəlif xəstəliklərlə mübarizəyə yönəltmişdi.

Azərbaycan səhiyyəsinin sonrakı inkişafı daha çox ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Səhiyyə məsələlərinə böyük diqqət və qayğı ilə yanaşan Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə bugünkü iri tibb müəssisələrinin əksəriyyəti inşa olunub əhalinin istifadəsinə verildi. Kadr hazırlığına böyük diqqət yetirən ulu öndər istedadlı gəncləri tanınmış tibb təhsili ocaqlarına göndərir, orada yüksək ixtisaslı kadrlar kimi formalaşmasına şərait yaradırdı. Həkimlərin ixtisasını artırması üçün Azərbaycanda müxtəlif konfranslar, simpoziumlar keçirilirdi. Ümummilli lider bu fəaliyyətini müstəqillik illərində - xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da davam etdirdi. Ulu öndərin müstəqillik dövründə 2 dəfə Azərbaycan Tibb Universitetində olması, proqram xarakterli çıxışları və ölkəmizdəki yeganə ali tibb müəssisəsinin maddi texniki bazasının möhkəmləndirilməsi üçün verdiyi qərarlar səhiyyəmizin parlaq səhifələrindəndir.

İnsanların sağlamlığının qorunması, gələcək nəslin sağlam böyüməsi bu gün də ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Respublikamızda son illər baş verən sürətli iqtisadi yüksəliş bütün sahələrin, o cümlədən səhiyyənin inkişafına da əsaslı təkan verib. Prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən tikilib istifadəyə verilən, yenidən qurulan tibb ocaqları Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir. Bu baxımdan Azərbaycanda keyfiyyətli, yüksək səviyyəli tibbi xidmətin göstərilməsi üçün bütün imkanlar mövcuddur.

Azərbaycan səhiyyəsinin inkişafında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın misilsiz xidmətlərini də xüsusi vurğulamalıyıq. Onun tövsiyəsi ilə bu istiqamətdə qəbul olunmuş qərarlar, qanunlar, dövlət proqramları, yaradılan tibb mərkəzləri səhiyyəmizin tərəqqisinə böyük töhfədir.

Böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan səhiyyəsi 2020-ci ildə yeni növ koronavirus (COVİD-19) pandemiyasına qarşı mübarizədən və 44 günlük Vətən müharibəsindən də qalibiyyətlə çıxdı. Artıq bu sahədə də yaxın keçmişdə topladığımız, uğurla sınaqdan çıxmış böyük təcrübəmiz var.

Ümid yeri olmaq, xəstələrə şəfa vermək, ömürlərə ömür calamaq kimi xeyirxah işlə məşğul olan bütün tibb işçiləri hər cür hörmət və ehtirama layiqdirlər.

Peşə bayramınız mübarək olsun, sağlamlıq keşikçiləri!

# Qalib ölkənin vətəndaşı olmaq qürurvericidir

**Nəhayət, 30 il gözlədiyimiz günün şahidi olduq. 44 günlük müharibədə Azərbaycan Ordusu öz gücünü göstərdi, xalqımızın qüdrətini ortaya qoydu. Azərbaycan Vətən müharibəsində qələbəsini rəsmiləşdirdikdən sonra Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının yaradılması haqqında təşəbbüs irəli sürdü. Artıq açıq səma altında nadir park salınıb. Burada ermənilərin qoyub qaçdığı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyat vasitələri, digər qənimətlər sərgilənir.**



Görkəmli alimlərdən biri müharibə haqqında demişdir: "Suveren dövlətlər mövcud olduqda, müharibə qaçılmazdır! Əgər müharibə varsa, iki tərəfdən biri ya uduzmalı, ya da qalib gəlməlidir". Həqiqətən müharibə, terrorizm bəşəriyyətə böyük zərbədir. Müharibələr özü ilə fəlakətlər gətirir. Xalqımız müharibə dəhşətlərini çox görüb. Biz Birinci və İkinci Qarabağ müharibələrinin ağrılarını yaşayırıq. Azərbaycanın ən gözəl guşələrini işğal edib, mədəni-tarixi abidələrimizi viran qoyan ermənilər, nəhayət ki, öz cəzalarını aldılar. İkinci Qarabağ müharibəsində ermənilərə kimin kim olduğunu göstərdik.

Ermənilər heç zaman öz faşist xislətini gizlədə bilməyib. Onlar gözlərini qırpmadan dinc əhaliyə qarşı qətl, təcavüz, işgəncələr törədirdi. Ermənilərin qeyri-insani əməlləri çoxlu sayda vətəndaşımızın həlak olmasına, yaralanmasına, psixoloji travma almasına səbəb oldu. Beynəlxalq hüquq kobudcasına pozuldu. 30 il ərzində bütün bunlardan nəticə çıxarıb, ədaləti bərpa edə bilməyən beynəxalq təşkilatların bacarmadığını Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətə həyata keçirdi. Möhtərəm Prezidentimizin Hərbi Qənimətlər Parkının açılış mərasimindəki çıxışını diqqətlə izlədim. Həmin çıxışdan bir məqamı diqqətə çatdırmaq istərdim: "Bizim aslanlarımız ölümə gedirdilər. Çünki onların işi haqq işi idi, onlar öz torpaqları uğrunda vuruşurdular. Erməni əsgərinin bizim torpağımızda nə işi var? Mən bunu hələ bir neçə il bundan əvvəl bir beynəlxalq tədbirdə demişdim. Hansısa erməni mənə sual vermişdi ki, orada snayper müharibəsi gedir, yaxud da erməni əsgərləri ölür. Dedim ki, ölmək istəmirsə, rədd olsun bizim torpağımızdan. Müharibə dövründə dəfələrlə demişdim, Ermənistan rəhbəri mənə tarix versin ki, bizim torpağımızdan nə vaxt rədd olur, həmin an biz müharibəni dayandırırıq. Belə də oldu. 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi".

Sevindirici hal bu idi ki, düşmənin əlinə Azərbaycan Silahlı Qüvvələrinə məxsus bircə texnika da keçmədi. Çünki biz öz tarixi torpaqlarımızda vuruşaraq, öz ərazilərimizi azad edərək yalnız irəli gedirdik. Məhz bu səbəbdən döyüş əməliyyatlarında qorxaq erməni əsgəri öz mövqelərini, silah-sursatını qoyub qaçırdı. Parkdakı eksponatlar arasında silahlı qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət kimi götürdüyü və ya məhv etdiyi 2 mindən çox avtomobildən çıxarılmış qeydiyyat nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya da qələbəmizin möhtəşəmliyini göstərir. Buradakı hərbi qənimətlər erməni vəhşiliyinin, hərbi cinayətlərinin əyani sübutu olmaqla, eyni zamanda Azərbaycana zəfər qazandıran müharibəni bir daha göz önündə canlandırmağa imkan verir. Buraya gələn hər bir insan – istər Azərbaycan vətəndaşları, istərsə də əcnəbilər bunu görürlər. Ötən ilin payızında bu tarixi anlara şahidlik edən, möhtəşəm günləri yaşayan hər bir Azərbaycan vətəndaşı xoşbəxtdir.

Birliyimiz Qarabağı qaytardı. Əminəm ki, bu park gənc nəslin vətənpərvər ruhda böyüməsində mühüm əhəmiyyətə malik olacaq.

**Sabir ƏLİYEV,**
*ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, Əməkdar elm xadimi, professor*

# Rezidenturaya ərizə qəbulu başa çatıb



**2021/2022-ci tədris ilində rezidenturaya qəbul imtahanında iştirak üçün mayın 26-dan başlanan ərizə qəbulu başa çatıb. Dövlət İmtahan Mərkəzindən (DİM) verilən məlumata görə, ərizə qəbulu internet vasitəsilə aparılıb.**

İmtahanda iştirak etmək üçün 2026 nəfər (Azərbaycan bölməsi – 1716, rus bölməsi – 310) ərizəsini təsdiqləidb.

Xatırladaq ki, əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul imtahanı DİM tərəfindən mərkəzləşdirilmiş qaydada iki mərhələdə keçirilir: baza fənləri və ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının iyunun 20-də, təkrar imtahanın (2-ci cəhd) iyul ayında, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının isə sentyabr ayında keçirilməsi planlaşdırılır.

Namizədlərə hər mərhələdə 100 test tapşırığı təqdim olunur. Hər iki mərhələdə namizədin hər bir test tapşırığına düzgün cavabı 1 balla qiymətləndirilir. Səhv cavablar namizədin imtahan nəticəsinə (yekun nəticəyə) təsir göstərmir. İxtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından topladığı bal 40 və daha çox olan namizədlər buraxılırlar. Hər bir mərhələdə imtahan suallarının cavablandırılmasına 2 saat 30 dəqiqə vaxt ayrılır. Müsabiqəyə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında topladığı bal 50-dən az olmayan namizədlər buraxılır. Qəbul elanının tam mətni "Rezidentura" jurnalının 2-ci sayında dərc olunub.

# Prezident təqaüdçüsü olan məzunlarla görüş keçirilib



Universitetimizin Tədris Cərrahiyyə Klinikasında II Müalicə-profilaktika fakültə rəhbərliyinin Prezident təqaüdçüsü olan məzunlarla görüşü baş tutub.

Görüş zamanı fakültənin dekanı, dosent İsrail Məhərrəmbəyli "Prezident təqaüdçüsü" kimi yüksək titulu təhsil müddəti boyunca qoruyub saxlamağı bacaran məzunları təbrik edib. Onlara gələcək fəaliyyətlərində uğurlar arzulayan İ.Məhərrəmbəyli hər birinin peşəkar mütəxəssis kimi tanınmasını diləyib.

Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev də məzunları tədris ilini müvəffəqiyyətlə başa vurmaları münasibətilə təbrik edib. Onlara peşəkar həkim kimi nailiyyətlər qazanmağı, daim yüksəklikdə olmağı arzulayıb.

Qeyd edək ki, Nigar Mirzəyeva, Namazəli Bəgəliyev, Təranə Şirinbəyli və Səbinə Sədrəddinova bütün təhsil müddəti boyunca – 2015-ci ildən 2021-ci ilədək Prezident təqaüdçüsü olublar. Görüş zamanı onlara fakültə rəhbərliyi tərəfindən xatirə hədiyyələri təqdim olunub.

Görüşdə fakültənin dekan müavinləri Zabit Məmmədov, Arzu Bəydəmirova və akademik məsləhətçi Nərmin Bayramova iştirak ediblər.



# Fakültə Elmi Şurasının onlayn iclası baş tutub

**I Müalicə-profilaktika fakültəsinin növbəti Fakültə Elmi Şurasının onlayn iclası keçirilib. İclasa fakültənin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent Elşad Novruzov sədrlik edib.**

Əvvəlcə Neyrocərrahlıq kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Rövşən Xəlilzadə son iki il ərzində kafedrada görülən işlər, tədrisin təşkili və dərslərin keçirilməsi, kafedrada davam etdirilən elmi işlər haqqında məlumat verib. Həmçinin, kafedra daxilində bütün əməkdaşlar tərəfindən müxtəlif növ neyrocərrahi əməliyyatların həyata keçirilməsindən və kafedra əməkdaşlarının Vətən müharibəsi dövründə göstərdikləri tibbi yardımlardan da danışılıb. Hesabatın sonunda kafedra üzrə bəzi çatışmazlıqlar, yeni tədris vəsaitlərinin hazırlanmasının zəruriliyi qeyd edilib.

Daha sonra tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsinə iddia olunan dissertasiya işləri üzrə Nevrologiya kafedrasının əməkdaşı Leyla Rəhimova, Uşaq cərrahlığı kafedrasının əməkdaşı Könül Musayeva, I Mamalıq ginekologiya kafedrasının əməkdaşı Günay Həsənli, tibb elmləri doktoru elmi dərəcəsi üzrə isə Histologiya, embriologiya və sitologiya kafedrasının əməkdaşı Nigar Quliyeva müxtəlif məruzələrlə çıxış ediblər.

Şura üzvlərini maraqlandıran mövzularda müzakirələrin ardınca müxtəlif kafedralar üzrə müsabiqədə iştirak edən əməkdaşların onlayn seçkisi keçirilib.

# Əcnəbi tələbələr Qarabağda



**Ölkəmizdə təhsil alan əcnəbi tələbələrin işğaldan azad olunmuş Füzuli və Cəbrayıl rayonlarına səfəri təşkil edilib. Səfər Təhsil və Müdafiə nazirlikləri, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə baş tutub. Səfərə 16 ali təhsil müəssisəsinin 31 ölkəni təmsil edən 40 tələbəsi qatılıb.**

Səfər çərçivəsində Füzuli rayonunda qədim məscid, qəzet redaksiyası, köhnə qəbiristanlıq, Cəbrayıl rayonunda Xudafərin körpüsü, su elektrik stansiyası, "Dostluq bulağı", "Qədim çinar", yay kinoteatrı ziyarət olunub. Bu ərazilərdə düşmənin törətdiyi dağıntılar tələbələrə nümayiş etdirilib. Eləcə də Cəbrayıl rayonunda xidmətdə olan əsgər və zabitlərlə görüş keçirilib. Səfər zamanı əcnəbi tələbələr tərəfindən Azərbaycanın böyük ölçülü dövlət bayrağı açılıb və "Qarabağ Azərbaycandır!" şüarı səsləndirilib.



Qarabağın Azərbaycan üçün əhəmiyyətini, bölgənin tarixi və zəngin mədəni irsini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə "Nargis" jurnalının Qarabağ mədəniyyətinə və tarixinə həsr olunmuş "Karabakh is Azerbaijan" adlı xüsusi buraxılışı əcnəbi tələbələrə paylanılıb.

Sonda xatirə şəkli çəkdirilib, əcnəbi tələbələrin təəssüratları dinlənilib.

Səfərdə Azərbaycan Tibb Universitetindən Türkiyə vətəndaşı Bekir Enes Evdi və İraq vətəndaşı Baraa Abbood iştirak ediblər. Səfər təəssüratları haqda danışan Bekir Enes düşmən vəhşiliklərindən dəhşətə gəldiyini, eyni zamanda Qarabağın təbii gözəlliyinə vurulduğunu bildirib.

# Əsaslı kitabxanada Nizami Gəncəviyə həsr olunmuş sərgi




ATU-nun Əsaslı kitabxanasında Azərbaycan və dünya ədəbiyyatına dəyərli töhfələr vermiş, Şərq və Qərbi birləşdirən humanist sənətkar, dahi mütəfəkkir Nizami Gəncəvinin əsərlərindən ibarət "Nizami Gəncəvi-880" adlı sərgi təşkil olunub.

Bu haqda açıqlama verən kitabxananın müdiri Ziyafət Eminova qeyd edib ki, Nizami Gəncəvi tarixə həm də tibb, təbabət haqqında qiymətli fikirləri ilə düşüb. Onun yaradıcılığında, oğluna nəsihət şəklində yazılmış şeirlərində çiçək, vəba xəstəlikləri, onların müalicəsi, zəli qoyma prosesi, insan orqanlarının necə işləməsi haqda maraqlı fikirlər var.

Şair çiçək xəstəliyinin yoluxucu olması, sağlam uşağı həmin xəstəliyə tutulanlardan təcrid etmək barədə belə yazır:

*Çiçəyi kənarda tutun uşaqdan,*
*Yoxsa zəhərlənər uşaqdakı qan.*

Nizami Gəncəvi öz əsərlərində ağciyəri "ilıq nəfəs sahibi", ürəyi "qızıl atlı süvari", "yaqut əbalı zəfər əsgəri", öd kisəsini "acıdil, cavan casus" (qədim təbabətə görə, öd kisəsinin iki ağzı var. Biri ağciyərə, digəri mədəyə açılır), dalağı "qara kələ", mədə və bağırsaqları "kəməndatan", böyrəkləri "misbədən pəhləvanlar" kimi ifadə edir.

Yaxud insanda qan artıqlığı, qan təzyiqi olanda neştər vasitəsilə çərtərək qan alınmasının vacib olduğunu belə təsvir edir:

*Bədəndə həddən artıq olsa qan,*
*Neştərlə tökərlər onu damardan.*

# ATU-nun komandası intellektual yarışın qalibi olub

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin və Nəsimi rayon Gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə onlayn formatda "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.**




Yarışın nəticələrinə əsasən, ATU-nun "Sinaps" komandası I yer, Azərbaycan Dillər Universitetinin "Winners' team" komandası II yer, Bakı Dövlət Universitetinin "1984" komandası III yerdə qərarlaşıb.

Yarışda universiteti ATU THİK intellektual oyunlar klubunun üzvləri Anar Kərimxanov, Rüfət Əzimli, Orxan Pənahov, Ülkər Məmmədova və Şəbnəm Kərimzadə təmsil ediblər.

# Əməkdaşımız beynəlxalq simpoziumda çıxış edib




Qazaxıstanın Almatı şəhərində XXVII Beynəlxalq Morfoloji Elmlər Simpoziumu keçirilib. Al-Farabi Qazaxıstan Milli Universiteti tərəfindən təşkil olunmuş tədbir "Hüceyrə, toxuma, orqanlar - təcrübə, yenilik və tərəqqi" mövzusuna həsr edilmişdi.

ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının assistenti Səbinə Əliyeva simpoziumda "Müxtəlif formalı üz kəllələrində asimmetriyanın öyrənilməsi" mövzusunda çıxış edib.

# «Rezidenturaya birlikdə hazırlaşaq» layihəsinə start verilir

*Ötən il tələbə və rezidentlərin razılığını nəzərə alan rektor, professor Gəray Gəraybəyli layihənin bu il də davam etdirilməsini tapşırıb*



**Azərbaycan Tibb Universiteti, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) və ATU-nun Tələbə Gənclər Təşkilatının (ATU TGT) birgə təşkilatçılığı ilə «Rezidenturaya birlikdə hazırlaşaq» layihəsinin açılışı baş tutub.**

Açılışda ATU-nun tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov, ATGTİ-nin sədri Pərviz Mirələmli, ATGTİ-nin sədr müavini, ATU TGT sədri Rauf Vəliyev və layihə çərçivəsində baza fənləri üzrə vebinarlara qoşulacaq ekspert-müəllimlər iştirak ediblər.

Görüşü giriş sözü ilə açan prorektor Zülfüqar Musabəyov layihənin artıq 2-ci ildir ki, təşkil olunduğunu diqqətə çatdırıb. Z.Musabəyov qeyd edib ki, çətin pandemiya dövründə rezidentura imtahanına hazırlaşan tələbələrə bu işdə dəstək olmaq çox vacibdir və bu baxımdan layihənin əhəmiyyəti böyükdür: “Ötən il təşkil olunan layihədən iki mindən çox tələbə və məzunumuz yararlanıb, vebinarlar sosial şəbəkələrdə iyirmi mindən çox şəxs tərəfindən izlənilib. Bu olduqca önəmli nəticədir. Onu göstərir ki, tələbələr tərəfindən layihəyə çox böyük maraq var və məhz bu səbəbdən eyniadlı layihə bu il də təkrar baş tutacaq”.

ATGTİ-nin sədri Pərviz Mirələmli çıxışında qeyd edib ki, ATU TGT-nin təşəbbüsü ilə keçirilən layihənin davamlı olması, bu il yenidən təşkil edilməsi ona ciddi tələbat olduğunu göstərir. Layihənin gedişinə uğurlar arzulayan P.Mirələmli ATGTİ-nin bu işə tam dəstəyini ifadə edib.

Sonda çıxış edən ATU TGT sədri Rauf Vəliyev bildirib ki, ötən il olduğu kimi, bu il də tələbələrimiz müvafiq qeydiyyat prosesindən keçərək layihəyə qoşulmaq imkanı qazanacaqlar: “Vebinarlar Zoom tətbiqi üzərindən baş tutacaq və təşkilatın feysbuk səhifəsində canlı yayımlanacaq. Tələbələrimizi layihədə fəal iştiraka dəvət edirəm və imtahanda hər birinə uğurlar arzulayıram”.

Daha sonra ekspert-müəllimlərdən professor Eldar Qasımov, professor Gülnarə Əzizova, dosent Aqil Əliyev və dosent İlahə Kərimova layihənin gedişi ilə bağlı öz tövsiyələrini veriblər.

Qeyd edək ki, layihə ilk dəfə 2020-ci ilin iyul-avqust aylarında keçirilib. İki ay ərzində müvafiq fənlər üzrə ekspert-müəllimlərin iştirakı ilə vebinarlar təşkil olunub. Ötən il layihə ilə bağlı müsbət fikirlər, tələbə və rezidentlərin yüksək səviyyədə razılığı nəzərə alınaraq, ATU-nun rektoru, professor Gəray Gəraybəylinin tapşırığı ilə layihənin bu il də davam etdirilməsinə qərar verilib. Bu tədris ilində müvafiq vebinarların may-iyun aylarında keçirilməsi planlaşdırılır. Layihə çərçivəsində iştirakçılar ekspertlər tərəfindən izah olunan mövzuları dinləyə və onlara suallarını ünvanlaya biləcəklər.

# “Uşaqları erkən yaşlarında kardioloji müayinə etdirmək vacibdir”

***Pediatrik-invaziv kardioloq Elşən Rzayev Vətən müharibəsində tibb xidməti zabiti kimi iştirak edib***

**Sağlam bədəndə sağlam ruh olar - bu aforizm leksikonumuza çoxdan daxil olsa da, bu gün də aktualdır, sabah da elə olacaq. Bəlkə də o səbəbdəndir ki, cəmiyyətlər dəyişsə də, insan sağlamlığının təminatçısı olan həkimlərə inam və rəğbət hissi qətiyyən dəyişmir, yəni azalmır. Əsas hədəfimizin xoşbəxt gələcək üçün sağlam nəsil yetişdirməyə yönəldiyini düşünəndə isə, bu rəğbət hissi daha da böyüyür. Ürəyimizə rahatlıq gətirən elə bu xoş düşüncələrlə ATU-nun Tədris Cərrahiyyə Klinikasının uşaq kardioloqu Elşən Rzayevlə görüşə yollanırıq.**



Müayinə otağındadır. Qayğılı görünən valideynlərin, hələ xəstəliklərinin fərqinə varmayan körpələrin əhatəsindədir. Müayinənin bitməsini gözləyirik. Otaqdan çıxanda simasındakı narahatlıq nəzərimizdən qaçmır. Sualımızı gözləmədən narahatlığının səbəbini bizimlə bölüşür: “İndicə müayinə etdiyim uşaq ağırlaşma ilə gəlib. Ağciyər tamamilə yüklənib, sıradan çıxıb. Vaxtında yoxlanılsaydı, əvvəlcə dərman müalicəsi alar, sonra isə bir əməliyyatla sağalardı. Artıq əməliyyat şansını itirib. Hazırkı vəziyyətdə bir neçə dəfə əməliyyat olunmalıdır. Amma bu əməliyyatların uğurla nəticələnməsi ehtimalı da çox aşağıdır”.



2015-ci ilin sonlarından uşaq kardioloqu kimi çalışan Elşən Rzayev bizimlə söhbəti zamanı Azərbaycanda pediatrik kardiologiyanın yeni yaranmağa başladığını bildirdi. Onun sözlərinə görə, əhalidə “ürək xəstəliyi ancaq yaşlı adamlarda olur” kimi bir fikir formalaşıb: “Əslində isə uşaqlarda anadangəlmə ürək qüsuru hallarına, xüsusilə də kritik anadangəlmə ürək qüsurlarına çox rast gəlinir. Qohum evlilikləri həm ürək, həm genetik xəstəlikləri artırır. Hər regionun öz spesifikası var. Kritik anadangəlmə ürək qüsurları uşaq doğulduğu anda müdaxilə tələb edir. Digər qüsurları isə zamanlamaqla 6 aylığında, 1 yaşında, 2-3 yaşında əməliyyat etmək mümkündür. Ən vacib məsələ anadangəlmə qüsurları erkən yaşlarda aşkarlamaqdır”.

Kardioloq bəzi valideynlərin uşaqlar böyüdükcə ürək döyüntüsünün azalmasından narahatlıq keçirməsinə də aydınlıq gətirdi. Bildirdi ki, bu, normal haldır, uşaq doğularkən ürək döyüntüsü 130-150-dən başlayır. Tədricən azalır, yetkinlik yaşına çatdıqda, 70-80-ə enir. Əksinə, ürək döyüntülərinin azalmaması ciddi problemdən xəbər verir.

Mütəxəssisin sözlərinə görə, uşaqda əl və ayaq soyuqluğu, dərinin göyərməsi qan dövranının pozulmasına işarədir və bu halda kardioloji müayinə mütləqdir. Eyni zamanda uşaq normal qidalanmırsa, çox tez-tez nəfəs alırsa, yaşıdları ilə müqayisədə fiziki hərəkətləri məhduddursa, yorulursa, yaşına uyğun kilo ala bilmirsə, ürək qüsurunu yoxlamaq tibbi göstərişdir.

Pediatrik-invaziv kardioloq E.Rzayev özünü bayılma şəklində büruzə verən uşaq aritmiyalarından, pasiyentlərin fərdi xüsusiyyətlərindən asılı olaraq əməliyyatların açıq və qapalı aparılmasından da danışdı. Sonrakı peşmançılığı önləməkdən ötrü uşaqları erkən yaşlarında ən azı bir dəfə yoxlatdırmağı valideynlərə tövsiyə etdi.

Söhbətimizin axarı 44 günlük Vətən müharibəsinə də gəlib çıxdı. Öyrəndik ki, Elşən həkim müharibənin əvvəlindən tibb xidməti zabiti kimi ordu sıralarına çağırılıb. Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut, Daşaltı, Şuşa istiqamətlərində yaralılara tibbi yardım göstərib. Bir günü bir ilə bərabər olan müharibə yaşantılarından danışarkən çox fərqli hisslər keçirdiyini deyir. Onunla eyni klinikada çalışan cəbhə yoldaşı, necə deyərlər, ağır günün dostu Ruslan Gözəlovun adını çəkir. Bəzi epizodları həm ürək ağrısı, həm də qürurla xatırlayır.

Müsahibimiz hər bir müharibənin gedişinə güclü təsir göstərən zaman amilinə də toxunur: “Əgər İkinci Dünya müharibəsində bir yaralıya həkimin 10 dəqiqə vaxtı gedirdisə, indiki müharibədə 3 həkim 40 dəqiqə ərzində 60 yaralıya yardım edirdi. Tibbi xidmətin işi həm də ona görə çətin idi ki, yaralıları hospitala çatdırarkən standart yollarla getmirdik. Nə yaxşı ki, igid əsgər və zabitlərimizin izini qoruyan, qələbəyə aparan həmin o yollar indi “Zəfər yolu” adlanır”.

# Dövlət imtahanlarına hazırlıq məqsədi ilə treninqlər təşkil olunub

**ATU-nun II müalicə profilaktika fakültəsində yekun dövlət imtahanlarına hazırlıq məqsədi ilə Mamalıq və ginekologiya, Daxili xəstəliklər, Cərrahi xəstəliklər fənləri üzrə Obyektiv Strukturlaşdırılmış Klinik imtahanının (OSKİ) bacarıq treninqləri təşkil edilib. Bu barədə adıçəkilən fakültənin dekanı, dosent İsrail Məhərrəmbəyli məlumat verib.**



Bununla əlaqədar olaraq, II Mamalıq-ginekologiya, II Cərrahi xəstəliklər, III Cərrahi xəstəliklər, II Uşaq xəstəlikləri, Urologiya, Ümumi cərrahiyyə, Şüa diaqnostikası və terapiyası, II Daxili xəstəliklər, Terapevtik və pediatrik propedevtika, Klinik farmakologiya kafedralarının professor və müəllim heyəti tədbirə cəlb olunub. Fakültənin buraxılış kurs tələbələri treninqdə aktiv iştirak ediblər.

# Universitetimizdə bronxial astma xəstələri üçün məktəb fəaliyyət göstərir

## "Astma məktəbi" xəstələrin daha müasir və effektiv müalicə metodlarına keçməsinə yardımçı olur

**Bronxial astmaya adekvat nəzarət etmək üçün xəstə öz xəstəliyi və müasir dərman terapiyasının imkanları barədə məlumatlı olmalıdır. Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının nəzdində, Tədris Terapevtik Klinikasında fəaliyyət göstərən "Astma məktəbi" məhz bu məqsədə xidmət edir.**

Məktəbdə dərslərin təşkili və aparılmasına məsul olan kafedranın dosenti Tahirə Pənahova bizimlə söhbətində bildirdi ki, terapiyanın və reabilitasiyanın bütün mərhələlərində təhsil proqramları xüsusi aktuallıq kəsb edir. Təhsil bronxial astmalı uşaqların kompleks müalicə proqramının zəruri tərkib hissəsidir. Hələ 1997-ci ildə 6 saylı Uşaq Klinik Xəstəxanasının bazasında yaradılmış "Astma məktəbi" "Uşaqlarda bronxial astma" Milli Proqramının müddəalarına, müvafiq metodik tövsiyələrə uyğun olaraq fəaliyyət göstərirdi. 2011-ci ildən isə "Astma məktəbi" ATU-nun Tədris Terapevtik Klinikasında professor Amaliya Əyyubova tərəfindən yaradılıb.

Sözünə davam edən T.Pənahova qeyd etdi ki, pediatrik "Astma məktəbi"nin məqsədi bronxial astmalı uşaqların terapiyasının effektivliyinin artırılması və xəstə yeniyetmələrin, eləcə də onların valideynlərinin maarifləndirilməsi yolu ilə xəstəliyin gedişinə nəzarət edilməsidir. Təlim həm stasionarda olanların, həm də ambulator xəstələrin qrupunda keçirilir.

"Astma məktəbi"ndə dərslərin nəzəri hissəsinə anatomiya, nəfəs almanın fiziologiyası, xəstəliyin mahiyyəti, kəskinləşmə simptomları; trigger, risk amilləri, profilaktika metodları, hipoallergen pəhriz və evdə şərait barədə informasiya; tutma baş verdikdə yardım göstərmə taktikası, bronxial astmanın dərman və qeyri-dərman müalicəsi, bazis və simptomatik dərman vasitələri haqqında məlumat mövzuları daxildir. Dərslərin praktik hissəsində isə xəstələrə düzgün inhalyasiya texnikasının, pikfloumetr, speyserdən istifadənin öyrədilməsi, xəstə uşağın və ailəsinin müxtəlif həyati situasiyalarda düzgün davranış taktikasının işlənib hazırlanması nəzərdə tutulub. Uşaqlar burada tənəffüs gimnastikası elementlərini, simptomlara şəxsən nəzarət etməyi, nəbzi və nəfəs alma tezliyini saymağı öyrənirlər. Dərslər yaş qrupları nəzərə almaqla qurulur





və həkimin söhbəti, rol oyunu, uşaqlara suallar verilməsi formasında keçir. Qrup dərslərində valideynlərin də öz problemlərini bölüşmək imkanı olur. Təcrübə mübadiləsi həm xəstələrin, həm də həkimin gələcəkdə faydalı ola biləcək müşahidələrini zənginləşdirir. Məktəbin təcrübəsi Bakı şəhərində bronxial astmadan əziyyət çəkən uşaqlarda bir sıra xüsusiyyətləri aşkar etməyə imkan verib.

Məktəbdə təşkilati-metodik tədbirlərdən bəhs edən Tahirə xanım vurğuladı ki, bronxial astmanın müalicəsində qeyd olunan çatışmazlıqları aradan qaldırmaq məqsədilə övladları bu xəstəlikdən əziyyət çəkən valideynlər üçün vəsait buraxılıb. Bununla yanaşı, məlumatlandırma səviyyəsi minimum olan poliklinikalarda sahə pediatrları üçün müvafiq terapiyanın müasir aspektləri haqqında müntəzəm mühazirələr təşkil edilir.

Adətən təlim kursundan sonra xəstələrin qəbul etdiyi dərman vasitələrinin spektri dəyişir. Belə ki, "Astma məktəbi" xəstələrin daha müasir və effektiv müalicə metodlarına keçməsinə yardımçı olur, uşaq olan yerdə siqaret çəkilməsi məhdudlaşdırılır, tənəffüs gimnastikasından daha tez-tez istifadə edilir.

Beləliklə, ilkin profilaktika və ardıcıllıq xəstəliyin fəsadlarını azaltmağa, vaxtında diaqnoz qoyub müalicə aparmağa imkan verir. Vahid mərkəzin köməyi ilə astmaya daha uğurla nəzarət olunur ki, bu da allergik xəstəliyi olan uşaqların həyat keyfiyyətini xeyli artırır.

**M.ƏLƏKBƏRLİ**

# Uşaq hara, şəkərli diabet hara...

## Gündüz Əhmədov: Yanlış qidalanma və hərəkətsizlik uşaqlar arasında endokrinoloji xəstəliklərin çoxalmasına səbəb olur



**Nəhayət, 30 il gözlədiyimiz günün şahidi olduq. 44 günlük müharibədə Azərbaycan Ordusu öz gücünü göstərdi, xalqımızın qüdrətini ortaya qoydu. Azərbaycan Vətən müharibəsində qələbəsini rəsmiləşdirdikdən sonra Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının yaradılması haqqında təşəbbüs irəli sürdü. Artıq açıq səma altında nadir park salınıb. Burada ermənilərin qoyub qaçdığı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyat vasitələri, digər qənimətlər sərgilənir.**

Son illər uşaqlar arasında endokrinoloji xəstəliklərdən əziyyət çəkənlərin sayı əvvəlki illərlə müqayisədə çoxalıb. Aparılan müşahidələr onu deməyə əsas verir ki, uşaqlarda ən çox şəkərli diabet xəstəliyi aşkar olunur, valideynlər uşaqlarında çəkinin artmasından və piylənmə prosesinin sürətlə getməsindən şikayətlənirlər.

Uşaqlarda bu xəstəliklərin hansı səbəbdən yaranması və onları qorumağın yolları barədə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Uşaq pulmonologiya, allerqologiya və endokrinologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Gündüz Əhmədov öz tövsiyələrini verib.

Şöbə müdirinin sözlərinə görə, endokrinoloji xəstəlikərə təkcə böyüklərdə deyil, uşaqlarda da rast gəlinir. Təsnifatına görə, endokrinoloji xəstəliklər arasında uşaqlarda ən çox rast gəlinən şəkərli diabetdir. Endokrin sistemdə uşaqlar arasında bu tipli xəstələrin sayının daha çox olduğunu qeyd edən G.Əhmədov xəstəliyin yaranmasının səbəblərini də açıqlayıb: "Bu xəstəliyin yaranmasının səbəblərindən biri irsi, genetik faktordur. Belə ki, kimin ailəsində şəkər xəstəsi varsa, artıq o, həmin xəstəliyin bir daşıyıcısıdır. Bu da nə vaxtsa nəsildə özünü büruzə verməlidir".

Diabet xəstəliyinə gənc və orta nəsil arasında daha şox təsadüf edildiyini deyən G.Əhmədov onların hər il lazımi müayinələrdən keçmələrinin vacibliyini vurğulayıb. Valideynlərə məsləhət görüb ki, uşaqlarının artıq çəki yığmaması, piylənmə ilə üzləşməməsi üçün qida rejiminə fikir versinlər: "Məlumdur ki, pandemiya uşaqlarda oturaq həyat tərzi yaradıb. Hərəkətlə bağlı məhdudiyyətlər onlarda piylənmə və artıq çəkinin yaranmasına səbəb olur".

Şöbə müdiri Bakı şəhər 6 saylı uşaq xəstəxanasında qeydiyyatda olan şəkərli diabet xəstələrinin statistikası barədə də açıqlama verib. Onun sözlərinə görə, 1997-ci ildə aparılan araşdırma zamanı aşkar olunan diabetli xəstələrin sayı 15 olub. 2007-ci ildə 74, 2020-ci ildə isə 255 xəstə. Say artımının başlıca səbəbi kimi, həkim uşaqlarda psixoloji gərginliyin olmasını qeyd edib.

Şöbə müdiri maraqlı bir fakt da açıqlayıb. Belə ki, araşdırma zamanı bəlli olub ki, diabetli oğlan uşaqları qızlardan daha çoxdur. Həkim bunun səbəbini dünyaya gələn oğlanların sayının daha çox və onların genetikasının qızlardakından fərqli olması ilə izah edib. Bildirib ki, qızlar oğlanlarla müqayisədə özlərində topladıqları stressi daha asan ata bilirlər: "Uşaqlar arasında ən çox rast gəldiyimiz problem artıq çəkinin olması və piylənmədir. Piylənmə təkcə diabet deyil, onkoloji xəstəliklər də yaradır. Qız uşaqlarında piylənmənin olması gələcəkdə döş vəzində onkoloji xəstəlik yarada, eləcə də ana olmaq qabiliyyətinə mənfi təsir göstərə bilər. Uşaqlar arasında bronxial xəstələrin sayının artması, oynaqlarında problemlərin, qaraciyərlərində piy hepatozunun yaranması da onlarda artıq çəkinin, piylənmənin müşahidə edilməsi ilə əlaqədardır".

G.Əhmədov 12 yaşadək uşaqlarda piylənmənin qarşısını almaq üçün hansısa dərman vasitələrinin olmadığını diqqətə çatdırıb. Bildirib ki, bu səbəbdən valideynlər uşaqların qidalanmasına ciddi fikir verməli və açıq havada gəzmələrinə şərait yaratmalıdırlar: "Çalışsınlar ki, meyvə-tərəvəzdən çox istifadə etsinlər və yeməklərin arasındakı vaxtlarda onlara şirniyyat və digər un məmulatları verməsinlər. Bu məsləhətlərə əməl olunarsa, uşaqlarımızı gələcəkdə üzləşəcə biləcəkləri ağır xəstəliklərdən qorumaq mümkündür".

**Qabil ABDULLAYEV**

# Gənc həkim ağır əməliyyatı uğurla həyata keçirib



**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Onkologiya kafedrasının doktorantı, ATU-nun Onkoloji Klinikasının onkoginekoloqu, uzman həkim Əkbər İbrahimov xəstə üzərində az hallarda rast gəlinən əməliyyat həyata keçirib. Belə ki, bir övlad anası olan 36 yaşlı xəstə üzərində 2018-ci ildə başqa bir klinikada laparoskopik üsulla yumurtalığın kistektomiya əməliyyatı icra olunub və əməliyyat materialının patohistoloji müayinəsində "Yumurtalığın bədxassəli şişi - qranuloza hüceyrəli şiş" aşkar edilib.**

Xəstədə daha sonra heç bir tamamlayıcı əməliyyat və adyuvant müalicə aparılmayıb. Bu ilin fevral ayında həmin xəstə Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasına üz tutub və lazım olan müayinələr aparıldıqdan sonra ona cərrahi müdaxilə tövsiyə edilib. Həkimin bildirdiyinə görə, xəstə üzərində icra olunan əməliyyat Birincili sitoreduksiya (Total parietal peritonektomiya, total abdominal histerektomiya, bilateral salpingooforektomiya, appendektomiya, splenektomiya, total omentektomiya, sitoloji alınması) olub. Əməliyyatın 6 saat davam etdiyini vurğulayan Ə.İbrahimov qeyd edib ki, bu tip əməliyyatların potensial riskləri və ağırlaşmaları var.

Amma əməliyyatdan sonrakı dövr ağırlaşmalarsız keçib və xəstə tam sağalma diaqnozu ilə ilə evə yazılıb. Söhbət əsnasında gənc həkim onu da əlavə edib ki, dörd illik həkimlik fəaliyyəti dövründə buna bənzər çoxlu sayda ağır cərrahi əməliyyatlar həyata keçirib.

Məlumat üçün bildirək ki, Əkbər İbrahimov 2011-ci ildə ATU-nu fərqlənmə diplomu ilə bitirib. 2012-ci il ərzində Türkiyədə ÜDS (universitetlərarası ingilis dili), STS (tibb diplomunun xaricdə tanıdılması) və TUS (tibbdə uzmanlıq dərəcəsi) imtahanlarını uğurla keçərək, Hacettepe Universitetinin Obstetriya, ginekologiya və ginekoloji onkologiya kafedrasında uzmanlıq təhsilinə başlayıb. 2015-2017-ci illərdə Hacettepe Universitetinin Ginekoloji onkologiya şöbəsində onkoloji xəstələrin cərrahi müalicəsi üzrə ixtisaslaşıb.

2017-ci ildə uzmanlıq təhsilini başa vuran Ə.İbrahimov həmin ildən ATU-nun Onkoloji klinikasında Onkologiya kafedrasının doktorantı kimi onkoginekoloq vəzifəsində çalışır.

# Azərbaycana “Sputnik V” peyvəndinin növbəti partiyası gətirilib




Azərbaycana Rusiya istehsalı olan “Sputnik V” peyvəndinin növbəti partiyası gətirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Rusiyadan Azərbaycana ümumilikdə 80 min doza “Sputnik V” vaksini çatdırılıb.

Qeyd edək ki, martın 11- də Baş nazir Əli Əsədov 300 min doza “Sputnik V” dərman vasitəsinin Rusiyadan Azərbaycana idxalı ilə bağlı sərəncam imzalayıb.

Xatırladaq ki, mayın 2-də Rusiyadan Azərbaycana “Sputnik V” vaksininin 40 min doza peyvənddən ibarət ilk partiyası gətirilmişdi.

Azərbaycanda “Sputnik V” vaksininin istifadəsinə isə mayın 18-dən başlanılıb.

# XX daxili turnirin qalibi “Alfa” olub

**Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin debat klubunun XX daxili turniri keçirilib. Turnir onlayn formatda baş tutub.**




Açılışda iştirak edən THİK sədri E.Kərimli tələbələrin asudə vaxtını belə səmərli keçirmələrini xoş qarşıladığını bildirib və bundan sonra da THİK-in bu tip tədbirlərə dəstək olacağını qeyd edib.

4 gün ardıcıl olaraq keçirilən turnirin final mərhələsində “Təsdiq mövqe”də “Triumph”, “İnkar mövqe”də isə “Alfa” komandası qərarlaşıb. Hakimlərin qərarına əsasən, XX daxili turnirin qalibi “Alfa” olub.

Sonda ATU THİK-in debat klubunun XX daxili turnirinin ən yaxşı natiqləri seçilib və komitəyə dəvət olunaraq sertifikatlarla mükafatlandırılıb.

**Mükafatçılar:**

Ən yaxşı I natiq: *Məhəmməd Məmmədov*
Ən yaxşı II natiq: *Süsən Məmmədli,Lalə Rövşənova*
Ən yaxşı III natiq: *Fidan Seyfullayeva*
Ən yaxşı IV natiq: *Nətavan İmanzadə*
Ən yaxşı V natiq: *Süpan İbrahimov*
Ən yaxşı VI natiq: *Səddam Abidli, Fidan Davudlu, Fidan Məmmədli*
Ən yaxşı VII natiq: *Səkinə Ağazadə*
Ən yaxşı VIII natiq: *Xalid Abaszadə*
Ən yaxşı IX natiq: *Sevinc Məmmədova*
Ən yaxşı X natiq: *Müqəddə Hüseynli, Səidə Bağırova.*
Turnirin ən yaxşı məşqçisi: *Gülnaz Hüseynova (“Triumph” komandası)*
Turnirin ən yaxşı hakimi: *Emil Quliyev.*

# Gül suyu dərini müalicə etməklə yanaşı həm də təmizləyici keyfiyyətə malikdir



Keçmişdə gül suyundan yalnız xoş qoxulu ətriyyat kimi istifadə edilirdi. Zaman keçdikcə onun gözəllik sahəsində də bir sıra faydaları məlum oldu. Xüsusilə dəriyə qulluq vasitəsi kimi gül suyu geniş tətbiq edilir. Onun antibakterial, təmizləyici və tonlaşdırıcı xüsusiyyətləri var.

Gül suyu ultrabənövşəyi günəş şüalarının səbəb olduğu dəri yanıqlarının müalicəsində də mühüm rol oynayır. Yanıq ağrılarını sakitləşdirir və sağaldır. Bu kosmetik vasitəni başqa məhlullarla birgə də istifadə etmək mümkündür.

Həmçinin, 6 xörək qaşığı gül suyu, 1 xörək qaşığı rəndələnmiş sabun və 1 xörək qaşığı qliserin qarışdırılaraq istifadə olunur. Quru dəri üçün isə gül suyuna 1 xörək qaşığı badam yağı və 1 çay qaşığı qliserin əlavə edilib qarışdırılaraq tətbiq edilir.

Dermatoloqlar mağazada satılan losyon və toniklər əvəzinə gül suyundan istifadə etməyi tövsiyə edirlər, çünki gül suyu dəridəki məsamələri təmizləyir. Onu soyuducuda saxlamaq məsləhətdir və soyuq halda istifadə dəri üçün daha faydalıdır.

# Tələbə və müəllimlərə sertifikatlar təqdim olunub

**ATU-nun I Müalicə-profilaktika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) 2020/2021 tədris ili üçün yekun görüşü keçirilib.**





Görüşdə fakültənin dekanı, dosent Elşad Novruzov, I MPF TEC-in rəhbəri, dosent Rəna Rzayeva və fakültənin elmi cəmiyyətinin təşkilati heyətinin üzvləri iştirak ediblər. Fakültə dekanı Elşad Novruzov təşkilati heyətə öz təşəkkürünü bildirib, onlara gələcək elmi fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Daha sonra rektor, professor Gəray Gəraybəyli tərəfindən imzalanmış sertifikatlar Tələbə Elmi Cəmiyyətinin işlərində, müxtəlif konfrans və vebinarların təşkilində yaxından iştirak edən tələbə və müəllimlərə təqdim edilib.

Qeyd edək ki, I Müalicə-profilaktika fakültəsi rəhbərliyinin dəstəyi ilə fakültə Tələbə Elmi Cəmiyyəti son bir ildə çoxsaylı tələbələrin diqqətini çəkən "Klinika -Təməl Fənlərdə" adlı 7 vebinar silsiləsini və "Radioloji görüntülər necə oxunmalı - Toraks" adlı videokonfrans həyata keçirib. Vebinarlar, eyni zamanda "Yotube" kanalı vasitəsi ilə yayımlanıb, onlar 4000-ə yaxın izlənmə qazanıb.

Görüşün sonunda tələbələrə uğurlar arzu edilib, növbəti tədris ilində daha da maraqlı işlərin görülməsi, tələbə elmi cəmiyyəti iclaslarının, müxtəlif elmi-praktiki konfransların təşkili barədə danışılıb.

# Hipervitaminoz vitamin-mineral komplekslərinin nəzarətsiz qəbulu nəticəsində inkişaf edir




**Sağlam yaşamaq üçün orqanizmə daim müxtəlif maddələr - zülallar, yağlar, karbohidratlar və vitaminlər daxil olmalıdır. Lakin vitaminlərin normadan artıq qəbul edilməsi orqanizmə xeyirdən çox ziyan verə bilər. Hipervitaminoz vitamin-mineral komplekslərinin nəzarətsiz qəbulu nəticəsində inkişaf edir.**

Vitaminlərin miqdarı təyin olunmuş dozadan bir qədər artıq olmaqla uzun müddət istifadə edildikdə yaranır. Ən təhlükəli məqam isə zəhərlənmə simptomlarının müşahidə olunmasıdır.

Həkim-terapevt Solmaz Musayeva deyib: “Qidaların qəbulu həkim məsləhəti ilə edilməlidir. Ehtiyac olan maddələri ya qida əlavəsi formasında, ya da normal qidalanma rejimini təmin etməklə bərpa etmək olar”.

Mütəxəssislər vitaminlərin daha çox təbii məhsullar vasitəsilə qəbul olunmasını tövsiyə edirlər. Tərkibi pektin və aşı maddələri, A. B, S vitaminləri, eləcə də mineral maddələrlə zəngin olan alma, gilas və ərik kimi meyvələr gün ərzində qəbul edildikdə insan orqanizmini lazımi miqdarda xeyirli maddələrlə təmin edir. Tədqiqatlar göstərir ki, A, B, E və K vitaminləri çox qəbul edildikdə orqanizmdə yığılır və nəzarətsiz istifadə olunduğu zaman hipervitaminoz adlanan xəstəliyə səbəb olur.

“C qrupu vitaminləri ehtiva edən qidalara əsasən sitrus meyvələri və brokkoli, kivi, çiyələk, cəfəri, ananas, kələm, noxud, yaşıl yarpaqlı tərəvəzlər və s. daxildir. B vitamininə isə tuna balığı və onun qara ciyəri, banan, quş əti, habelə bir sıra dəniz məhsulları aiddir”,-deyə həkim-terapevt bildirib.

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, orqanizmdə A vitamini çox olduqda şiddətli baş ağrısına, K vitamininin çox qəbul edilməsi qanın laxtalanmasına, S vitamininin çoxluğu isə böyrək daşlarının formalaşmasına səbəb olur. Ona görə də hər bir xeyirli maddənin zərərli cəhətləri olduğunu da unutmaq olmaz.

## Etibarsız sayılır

İctimai səhiyyə fakültəsinin VI kurs, 627 C qrup tələbəsi Məmmədova Lalə Əfqan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

2 saylı Kliniki Uşaq xəstəxanasının işçisi Həmidova Afaq Bahadur qızına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

I Müalicə-profilaktika fakültəsinin VI kurs, 9 B qrup tələbəsi Qarayeva Sevil Taryel qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II Müalicə-profilaktika fakültəsinin akademik borcu qalan məzunu Cəbrayılzadə Cəbrayıl Rafael oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevə əzizi

**Əhməd Aslan oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ümumu gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov və Qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhmədov ATU-nun professoru Azər Xudiyevə qardaşı

**Nizami Xudiyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tədris Cərrahiyyə Klinikasının kollektivi III Cərrahı xəstəliklər şöbəsinin müdiri, dr. Aydın Əliyevə anası

**Xuraman xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ümumu gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov Tədris Terapevtik Klinikasının müalicə işləri üzrə direktor müavini (baş həkim) Fəridə xanım Hacıyevaya oğlu

**Kamranın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ümumu gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov Tibbi mikrobiologiya kafedrasının professoru Nigar Ağayevaya qızı

**Şəms Xuduyevanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bioloji kimya kafedrasının kollektivi kafedranın baş müəllimi İlhamə Kərimovaya bacısı

**Məlahət xanımın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır*

Qəzet “Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKF-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2250